# “Haas” komandasının rəhbəri G. Ştayner:

# Bakı yarış üçün gözəl trekdir

**Bakıda Formula-1 həyəcanı başladı. İyunun 4-dən 6-dək keçiriləcək növbəti Formula 1 Azərbaycan Qran prisinə maraq olduqca böyükdür. İştirakçıların da yarışlar haqqında fikirləri belə deməyə əsas verir ki, qarşıdakı günlərdə bizi çox maraqlı və unudulmaz mübarizə gözləyir.**



Builki Formula 1 Azərbaycan Qran prisi qapalı qapılar arxasında keçiriləcək. Bu barədə koronavirus pandemiyasından qaynaqlanan davamlı narahatlıqlar və ilk növbədə




bütün azarkeşlərin, işçilərin, maraqlı tərəflərin və iştirakçıların sağlamlığı və təhlükəsizliyi nəzərə alınaraq qərar verilmişdir. Bu günə qədər olan ən çətin şərtlərə baxmayaraq, Bakı Şəhər Halqası komandası məşhur 20 döngəli, 6 kilometr uzunluğundakı şəhər halqasının dünyanın ən böyük sürücülərini iyunun ilk günlərində Bakıda qarşılamağa hazır olacağını təsdiqləməkdən qürur duyur. Onlar əvvəlki 4 yarış ilə idman tarixinin ən əlamətdar məqamlarını təqdim etmiş bir şəhərdə daha bir inanılmaz yarış həftəsonunun olacağını vəd edir.

Bu dəfə də məşhur komandalar azarkeşləri sevindirəcəklər. Onlardan biri də ABŞ-ın “Haas” komandasıdır. Bu komanda cari mövsümdə hələ xal qazanmamışdır. Bununla belə, Bakı Şəhər Halqasında keçirilən yarışlar həmişə sürprizlərə açıq olmuşdur. Komandanın rəhbəri Günter Ştayner bildirir ki, Bakı Şəhər Halqasının gözəl mənzərəsi var. “Məncə, Bakı yarış üçün gözəl trekdir. Şəhər tipli tras olsa da, uzun düzlüyü var. Mənzərəsi də çox gözəldir. Oranı çox sevirik. Fərqli trekdir, amma biz də fərqli olanı sevirik”.

“Mercedes Motorsportun rəhbəri Toto Volff bildirir ki, Monakodakı səhvlərdən sonra Azərbaycana daha güclü formada qayıdacaqlar. “Xalq qəzeti” “F-1.az” saytına istinadən xatırladır ki, “Mercedes” komandası Monakoda uğursuz yarış keçirmiş və 7 xalla qayıtmışdır. Buna görə də, həm Sürücülər Çempionatında, həm də Mühəndislər Kubokunda “Red Bull”un gerisinə düşüblər. Toto Volff: “Monako yarışlarından sonra daha güclü formada qayıdırsınız. Bu idmanda heç nə asan deyil və buna görə Formula1-i sevirik. Əgər tam hazır deyilsinizsə, siz məğlub olacaqsınız. Monakodan sonra komanda üzvləri çox enerjili idi. Eynilə Bəhreyndəki testlərdən sonra olduğu kimi. Monakodan dərs götürdük. Kaş, oraya yarışdan əvvələ qayıda bilsəydik. Növbədə Bakı var. Şəhər tipli tras olsa da, Monakodan fərqlidir və bizim bolidimiz üçün əlverişli deyil. Çətin olacaq. “Red Bull” yenə güclü olacaq. “Ferrari” və “McLaren” də sürətləniblər. Bizim bolidimizə əlverişli olmayan trekdən maksimum nəticə çıxarmalıyıq. Bakı yarışını səbirsizliklə gözləyirik. Sonuncu yarışdakı nəticədən sonra ora qərarlı və motivasiyalı gedirik”.

“McLaren” komandasının sürücüsü Lando Norris düşünür ki, Azərbaycan yarışında mütləq Karlos Saynsın önündə olacaq. K.Sayns verdiyi müsahibədə Lando Norrisin Azərbaycan yarışı üçün həyəcanlı olduğunu demişdi: “Görək. Düz yolda sürətli olanlar var. Düzlük sürətinə və əylənmə zamanı boliddə inama ehtiyacımız var. Barselonada çox çətin idi və Monakoda zəif olacağımızı düşünürdük. Hələ ki bolidi öyrənirik. Boliddə xırda dəyişikliklər olsa da, bizə təsir etdi. Bakı üçün gözləntim yüksək deyil, amma yarışı Karlosun önündə bitirəcəyəm!”.


**Təqdim etdi:**
**Səbuhi MƏMMƏDOV,**
**“Xalq qəzeti”**



Xalq qəzeti.- 2021.- 4 iyun.- S.6.